# İçərişəhərin küçələri

**Orta əsrlərdə olduğu kimi, İçərişəhərin üç əsas mərkəzi küçəsi olmuşdur. Bu küçələr hazırda belə adlanır: Böyük qala küçəsi (Qala meydanı küçəsi), Kiçik qala küçəsi (Qala divarı dibi küçəsi) və Karvan yolu küçəsi (A.Zeynallı küçəsi) Böyük qala küçəsi ilə A.Zeynallı küçəsi Qala meydanından başlayır. Orta əsrlərdə bayramlar, şənliklər və ticarət tipli yarmarkalar Qala meydanında keçirilərdi.**



Əlbəttə, əsas magistral ticarət küçəsi İpək yolu üzərində olan karvan ticarət yolu idi. Bu küçə Qoşa qala meydanından başlayaraq Multan və Buxara karvansaralarının yanından ("yuxarı bazar" və "aşağı bazar") keçərək Kiçik karvansaranın (çuxur karvansara) yanındakı gömrükxanayadək uzanardı. Bu küçə demək olar ki, üzbəüz yerləşən ticarət köşklərindən ibarət idi. Həmin küçə boyu Qız qalası, Sıratağlı Dini-Memarlıq Kompleksi, konservasiya olunmuş arxeoloji abidələr, 4 karvansara (Multan, Buxara, İkimərtəbəli və Kiçik karvansaralar), 4 məscid (məktəb-məscid, Aşur məscidi, Məhəmməd məscidi, Şeyx İbrahim məscidi) və digər memarlıq abidələri yerləşir.

Kiçik qala küçəsi Qoşa qala qapılarından sağa - şimal-qərb istiqamətində qala divarları boyu Salyan (cənub) qapısınadək uzanırdı. Rusların Bakını işğal etməsindən sonra - 1806-cı ildən etibarən Kiçik qala küçəsi boyu şimal-şərq qala divarları istiqamətində əsgərlər üçün kazarmalar tikilmişdi. Daha sonra günümüzədək qalan bu kazarmalarda yerli əhali məskunlaşmışdı. Kiçik qala küçəsində Dördkünc qala (cəbbəxana), Ovdan (su anbarı), Hamamçılar məhəlləsi, Ağa Mikayıl hamamı, Qala divarı boyu yeraltı yol, Çin məscidi və s. abidələr yerləşir.

Böyük qala küçəsi İçərişəhəri iki yerə bölürdü: aşağı hissə və yuxarı hissə. İctimai binaların əksəriyyəti aşağı hissədə yerləşirdi. Aşağı hissədə olan küçələrdə həmişə insanlar çox olur, alış-veriş edirlər. Bura sahilə yaxın olduğu üçün küçələrdə balıqçılar, qayıqçılar, həmçinin ağşalvarlılar (gəmilərdə çalışanlar) yaşayırdılar. Yuxarı hissədə isə Şirvanşahlar saray məhəlləsi ətrafında şəhərin zəngin adamları yaşayırdı.

Bundan başqa, İçərişəhərdə çoxlu kiçik, dar küçələr, tinlər, döngələr və dalanlar var. Məsələn, Mirzə Əhməd (Sabir küçəsi), Hamamçılar (Müslüm Maqomayev küçəsi), Tyomnıy ryad (Mirzə Mənsur küçəsi), Pendiryeməyənlər (Mirzə Şəfi küçəsi), Varvarayervskaya (H.Rzayeva küçəsi) və s. Əlbəttə ki, bu küçələr öz adlarını bir neçə dəfə dəyişmişlər.

Azərbaycan. - 2019.-19 may.- S.6.